İbrahim Samiroğlu

# Planlı ölüm



2022

İbrahim Samiroğlu “Planlı ölüm”. 38 səhifə

İnistagram.com/ibrahimsamiroglu

Facebook.com/ibrahimsamiroglu

Yazın gəlişi hiss olunurdu. Ağaclar çiçək açmış, yağan yağışlar qismən çoxalmışdı. Doqquzmərtəbəli binadan həyəti seyr edən mayor Eldar Əzizov kefsiz idi. Son günlər ailəsi ilə yaşanan problemlər, ona pis təsir etmişdi. 45 yaşlı mayor iki gün idi ki, özündə deyildi. Balkona çıxıb, məhəccərə söykəndi. Qutudan bir siqaret çıxarıb yandırdı. Havada uçuşan tüstülər, tez bir zamanda yox olurdu. Həyətin küncündə yerləşən köşk, balkondan cılız görünürdü. Bu köşkün sahibi, Rafiq idi. Köhnə “Moskvichi” ilə bazara gedər, ucuz qiymətə meyvə alıb, gətirib bu köşkdə satırdı. Rafiq dördüncü mərtəbədə qalırdı. Elədə yaraşıqlı biri deyildi. Dörd il həbsdə yatmışdı. Nisbətən sakit biri idi. Əzizovu görəndə, Salam sağ ol edirdi. Siqaretini külqabına basıb söndürdü. Cinayət axtarış şöbəsinin rəisi idi. Ötən həftə baş verən cinayətdən sonra, nisbətən aralar sakit idi. Hələ ki, hadisə yox idi. Və bu Əzizovu sevindirdi. Ailəsini kəndə apardığı iki gün idi. Evdə sakitlik hökm sürürdü. Hərdən alt qonşunun qışqırıq səslərini çıxsaq. Birdən-birə Əzizov, uşaqları üçün darıxdı. Oğlu həmişə onun üstünə atılar, düşüb getməzdi. Əzizov isə, oğlunun xətrinə dəyməzdi. Televizoru yandırdı. Xəbərlərə çevirib, bu gün olanlara nəzər saldı. Müxbir qadın durmadan danışırdı. Növbəti kanala çevirdi. Burada Musiqi verilirdi. Növbəti xəbər kanalına çevirdi. Və lazımsız konsert gedirdi. Televizoru qapadıb, ayağa

qalxdı. Divardan asılmış saatın əqrəbləri, 11-in üzərində idi. Hələ ki, səhər idi. Mətbəxə keçib, bir tikə çörək yedi. Ayağa qalxıb, əllərini yudu. Balkona çıxıb, bir siqaret də yandırdı. Tüstünü ciyərlərinə çəkərək, çölə ötürürdü. Stolun üstündə olan telefonu zəng çaldı. İçəri keçib, zəngi açdı:

– Alo, rəis. Nərimanov rayonunda hadisə baş verib. Binalardan birindən, gənc bir qız özünü ataraq, intihar edib
– Gəlirəm Zəkiyev. – deyib telefonu qapadı.

Paltarını geyib, evdən çıxdı. Yeni aldığı “Nissan” avtomobilinə minib, hadisə baş vermiş əraziyə yollandı.

***

Nərimanov rayonda yerləşən, beş mərtəbəli binanın həyətinə xeyli adam yığılmışdı. Serjant Quliyev, adamları kənara itələyərək:

– Çəkilin kənara. Ay millət kənara?!

Orta yaşlı bir kişi qarşıya gəlmək istəyəndə, Quliyev kişini necə itələdisə, kişi müvazinətini itirib, yerə yıxıldı. Axtarış şöbəsinin rəisi yaxına gələrək meyitə nəzər saldı. Gənc qızın üstünə örtü çəkilsə də, üzü açıqda idi. Bu, 19-20 yaşlarında gənc bir qız idi. Prokurorluğun müstəntiqi Ağayev ona yaxınlaşdı.

– Universitet tələbəsi imiş. İkinci kurs özü də.

– Niyə öldürüb, özünü? – bu nə sual idi verdi.
– Bilinmir.
– Məktub yazıb?
– Bəli. Məhkəmə tibb eksperti Rahim həkimdədir.

Rəis müstəntiqdən uzaqlaşıb, həkimə yaxınlaşdı.

– Doktor, məktub sizdədir?
– Aha, buyurun. – həkim, bükülü məktubu rəisə uzatdı.

Sıxlıqdan kənara çəkilib, məktubu oxumağa başladı.

“mənim ölümümdə heç kəs günahkar deyil. Mənəm günahkar. Bu halımla yaşamaq, ömür boyu əzab çəkmək istəmirəm. Mənə görə üzülməyin.”

Məktubu cibinə qoyub, meyitə yaxınlaşdı. Qızın atası və anası gəlib çatmışdı. Qızın anası, Burada bir vay şivən qoparırdı ki, gəl görəsən. Yazıq qadın, üzünü gözünü cırmaq-cırmaq etmişdi. Qızının meyitinin yanında oturaraq başını yolurdu. Bir neçə dəqiqələr ötüşdü. Meyiti aparan maşın gəldi. Qızın cəsədini maşına qoyub, xəstəxanaya apardılar. Ana və ata isə maşınla xəstəxanaya getdi. Bu işi araşdırmaq, Mayorun vəzifəsinə düşürdü. Müstəntiqi də götürüb, bölməyə yollandı. Əzizovun müavini Aslanov, ölən tələbə Aynur Həsənovanın, ən yaxın tələbə dostlarını bölməyə çağırmışdı. Əzizov otağında olan iki qızı süzürdü.

Onları bir-bir danışdırmaq istəyirdi. Birinə çöldə gözləməyi tapşırıb, birini saxladı.

Otur, qızım. – gənc qıza yer göstərdi. Qız keçib əyləşdi.

– Aynuru çoxdan tanıyırsan?

Qızın sıxıldığı bəlli idi. normal şəhər qızı olmasına baxmayaraq, nədənsə çox sıxılırdı.

– Bir il olar. – kəkələyərək dedi.
– Adın nədir?
– Fatimə.
– Fatimə, məndən heç nə gizlətmə. Nə bilirsən, olduğu kimi danış.
– Yaxşı.
– Aynur necə biri idi?
– Sakit, ağıllı qız idi. Çoxda əhatəsi yox idi.
– Aha. Bəs dərslərini necə oxuyurdu?
– Yaxşı. Qrup nümayəndəsi idi.
– Belə de. Yaxşı, onun qızlarla davranışı necə idi.
– Pis deyildi. Özünə qapalı biri idi. Heç kəslə kəlmə belə kəsməzdi. Yaxınlarını çıxmaq şərti ilə.
– Sizin yaxın dostunuz olub. Düzdür?
– Bəli. Mən onunla həm dost, həm bacı idim.
– Sizinlə sirr saxlayırdı. Ümumiyyətlə, sizə güvənirdi?
– Əlbəttə. Onun ən yaxın rəfiqəsi mən idim.
– Mən sizin vaxtınızı çox almaq istəmirəm. – rəis dedi. – Aynurun görüşdüyü, tanış olduğu bir oğlan var idi?
– Xeyr, mən görməmişəm.

– Yaxşı. Çox sağ olun, Fatimə xanım. Müstəntiq çöldədir. İzahatınızı yazıb, gedə bilərsiniz.
– Siz sağ olun. – qız ayağa qalxıb, kabineti tərk etdi.

Rəis, müavininə növbəti qızın gəlməsini dedi.

Bu səfər içəri, arıq, orta boy bir qız girdi. Rəis yer göstərib, əyləşməsini istədi. Bu qız, bayaq ki qızdan fərqlənirdi. Rəis, qıza qısaca nəzər salıb, sorğu-suala keçdi.

– Adınız nədir?
– Yasəmən. – saçlarını yana tullayaraq dedi.
– Yasəmən xanım. Aynurun yaxın rəfiqələrindən biri də sizsiz. Doğrudur?
– Bəli.
– Aynur necə biri idi? Sizlə sirr paylaşırdı?
– Elə də sirri yox idi. Sakit bir qız idi.
– Yaxşı. Bəs, sevdiyi, görüşdüyü?
– Nurlan adında bir oğlanla danışırdı. Bu yaxınlarda ayrılıblar.
– Aha.. Nurlan kim idi?
– Mən haradan bilim? Universitetdə oxuyurdu.
– Sizin oxuduğunuz?
– Bəli.
– Çoxdan danışırdılar. – rəis stoldakı sudan içib dedi.
– Elə də yox. İki ya üç ay olardı.

Rəis işin dolaşıq olduğunu bilirdi. Sorğu-sualı davam etdirmək lazım idi.

– Nurlanın harada yaşadığını bilirsiniz?
– Yox. Mən haradan bilim.
– Yaxşı. Bəs özü haqqında danışırdı?
– Yox. Ancaq dərs oxuyurdu. Amma, son vaxtlar yaxşı deyildi. Dərsə belə hazırlıqsız gəlirdi. Neçə dəfə danlanmışdı.
– Aha. Bəs siz bunun səbəbini soruşdunuz?
– Əlbəttə. Deyirdi ki, anası xəstədir, nə bilim başı qarışıq olur. Məncə, yalan deyirdi. Nə isə problemi var idi.
– Oldu, Yasəmən xanım. Çox sağ olun. Müstəntiqin otağına gedin. İzahatınızı yazdıqdan sonra, evə gedə bilərsiniz.
– Sizdə sağ olun. Yaxşı. – Yasəmən də ayağa qalxaraq, rəisin kabinetini tərk etdi.

Deməli, Nurlan adlı oğlanla danışırmış. Nurlan, Nurlan... Adı bir neçə dəfə təkrar etdi. Qutudan bir siqaret çıxarıb dodaqlarına qoydu. Qızılı alışqanı ilə yandırıb, otağı tüstüyə qərq etdi. Qapısı döyülüb, açıldı. Leytenant İsayev otağa daxil olub:

– Rəis. Ekspertiza rəyi təyin edib. Aynur Həsənova intihar edib. Qızın bədənində iynə yerləri aşkar olunub. Bu kiçik iynə yerləri az deyil. Ciyərlərinə baxılıb və narkotik istifadəçisi olduğu məlum olub. Təzə başlamış olub. Bir ya iki ay.
– Qızın cəsədi ailəsinə verilib?
– Bəli, rəis.

– Yaxşı, gedə bilərsən, İsayev.

İsayev otağı tərk etdi. Siqaretdən bir qullab alıb, külünü vurdu. Narkotik, bu ağ ölümün qurbanları az deyildi. Neçə-neçə canlar almışdı. Əgər Aynur narkotik istifadəçisi olubsa, demək kimlərsə onu buna Vadar edib. Bəlkə də, narkobiznеslə məşğul imiş. Yox, hələ heç nə məlum deyildi.

Aynurun yaşadığı mənzilə getmək lazım idi. Müavini Aslanova tapşırdı ki, mənzilin açarını, prokurorluqdan alıb gətirsin.

***

Beş mərtəbəli binanın üçüncü mərtəbəsində yerləşən mənzilə çatıb, qapını açdılar. Müstəntiq Ağayev və özü evə daxil oldu. İki otaqlı mənzil, kirayə idi. Aynur burada qalırdı. İlk öncə, yataq otağına keçdilər. Bura, balaca bir otaq idi. Otaqda Köhnə taxt, paltar dolabı, yazı masası var idi. Bir də xırda-para əşyalar. Müstəntiq Ağayev əşyalara nəzər yetirməyə başladı. Rəis, kiçik dolabı axıb, içərisinə baxdı. Taxtadan düzəldilmiş fiqurlar, rəsmlər, dolabın içində idi. Buranı tərk edib, yazı masasına yaxınlaşdı. Burada da, elə də çox şey yox idi. Kitab, dəftər, qələm. Dəftərlərə qısa nəzər saldı. Gözəl xətti var imiş. – dedi.  Masanın siyirməsini açdı. Burada bir səfər var idi. Üstünə, gündəlik yazılmışdı. Qırmızı üzlü gündəliyi götürüb, ilk səhifəsini açdı.

Sadəcə olaraq, 17 may 2021 yazılmışdı. Növbəti səhifələrdə isə, yazılar var idi. Cinayət axtarış şöbəsinin rəisi, dəftəri büküb, döş cibinə qoydu.

- Rəis, burada vaxt itirməyək. Elə də çox şey yoxdur, burda. – Müstəntiq narazı ifadə ilə dedi.
- Yaxşı, Ağayev. O, biri otağa baxaq.

Yataq otağından nisbətən böyük olan, zala keçdilər. Burada da çox şey yox idi. Köhnə televizor,

Yemək masası, divan, kreslo var idi. Müstəntiq ətrafı nəzərdən keçirib,  Burada lazımi məlumat tapa bilməyəcəklərini dedi. Rəis, getməyi bilib, müstəntiqlə razılaşdı. Mənzili tərk edib, qapını bağladılar. Rəisin maşını ilə şöbəyə getdilər. Rəis otağına keçib, yerində əyləşdi. Əgər, bu qız intihar etmişdisə, nə isə problemi var imiş. Telefonu götürüb, Müavininə yığdı.

- Aslanov. X. Universitetindən Nurlan adlı nə qədər oğlan varsa, hamısını bölməyə gətirin. Bir az tez.
- Yaxşı, rəis.

Sorğu-sualın tez bitməsini istəyirdi. Evə gedib, bu gündəliyi oxumaq lazım idi. Bəlkə də, qız, başına gələnləri bura yazıb?! Aslanov uşaqları gətirsin, hələ bir. Qutunu açıb, siqaret yandırdı. İntiharın səbəbini aça bilsə, rahatlaşa bilərdi. Bir saat da ötüşdü. Kabinetin qapısı döyüldü və Aslanov otağa daxil oldu. Yanında da yeddi gənc oğlan.

- Rəis. Yeddi oğlandır. Hamısının da adı, Nurlan.

– Lap yaxşı. Sən çıx, Aslanov
– Oldu. – Müavin kabineti tərk etdi.
– Hə. Sizdə əyləşin. Rəis, otaqdakı divanı işarə etdi.

Gənc oğlanlar, göstərilən yerdə əyləşdilər. Rəis, onlara diqqətlə baxıb, deyəcəyi sözləri götür-qoy etdi, və sözə başladı:

– Deməli belə. Yəqin ki, Aslanov sizə deyib. Bura nə üçün gəldiyinizi.
– Bəli. – gənclər mızıldandı.
– Çalışaq ki, bir-birimizi başa düşək. Nə siz yorulun, nədə mən. – Rəis gülümsədi. Dərhal da ciddiləşdi.

Gənclər rəisə qulaq asırdılar. Görünür, onlar rəisdən çəkinirdi.

– Bu gün, Nərimanov rayonunda intihar olub. Sizin universitetinin tələbəsi, Aynur Həsənova intihar edib. – rəis dedi.

Gənclər qorxuya düşdü.

– Mənim vaxtım yoxdur ki, hamınızı tək-tək danışdırım. Sizlərdən biri, Aynurla yaxın imiş. Düzünü deyin, onsuz, biz araşdırma aparırıq.

Gənclər yaman qorxurdu. Gənclərdən, uzun boylu, yaraşıqlı biri ayağa qalxıb:

– Mən, Aynurla tanışam. – O, qorxa-qorxa cavab verdi.
– Yaxşı. Belə tez olacağını bilmirdim. Yaxşı oğlana oxşayırsan. – rəis dedi. – siz gedə bilərsiniz. – O, biri

gənclərə işarə etdi. Gənclər ayağa qalxıb, otağı tərk etdi. Rəis ayağa qalxıb, Gəncin yanına gəldi.

– Nurlan. Gəl düz danışaq. Yaxşı?
– Yaaaxşı. – Nurlan adlı gənc kəkələdi
– Aynurla çoxdan danışırdın?
– İki ay olardı.
– Hm. Sevgili idiniz?
– Hə.
– Bəs niyə ayrıldınız?
– Siz haradan bilirsiniz?
– Mən hər şeyi bilirəm!
– O, özünü qəribə aparırdı, son vaxtlar.
– Necə qəribə?
– Nə bilim, mesajlarıma baxmırdı. Heç yana getmirdi, mənimlə.
– Bunlara görə ayrıldın?
– Yox. Yeni, başqa səbəblər də var idi.
– Nə səbəblər idi?
– Deyəsən, narkotikə qurşanmışdı.
– Haradan öyrəndin?
– Bu, açıq-aydın hiss olunurdu. Gözlərinin altı qaralmışdı. Arıqlamış, pis vəziyyətə düşmüşdü.
– Və səndə pis vəziyyətdə onu tərk etdin?
– Yox. Özü məni Vadar etdi.
– Necə tanış olmuşdunuz?
– Universitetdə. Onu qızlarla görüb, bəyənmişdim.
– Sonra?
– Sonra, özüm yaxınlaşıb tanış oldum.

– Razı oldu, yəni?
– Əlbəttə.
– Yaxşı. Bəs onunla aranda nə isə olmuşdu?
– Qətiyyən. Dediyim kimi, son vaxtlar qəribə idi.
– Nurlan, səncə O, kimlərə qoşula bilərdi?
– Deyə bilmərəm. – Nurlan mızıldandı.

Rəis dolaşıq işə düşmüşdü. Düyünlü ipi açmaq, qəliz olacaqdı.

– Yaxşı, Nurlan. Gedə bilərsən. Amma, nömrəni mənə ver.

Oğlan, nömrəsini deyib, kabineti tərk etdi. Rəis yerinə keçdi. Siqaretini yandırıb, fikrə getdi. Yox. Evə gedib, gündəliyi oxumalı idi. Nədənsə, ürəyi sancdı. Ayağa qalxa bilmədi. Belə vəziyyətdə maşın sürmək olmazdı. Telefonu çıxarıb, baş leytenant Rövşən Hüseynova zəng vurdu:

– Hüseynov. Təcili otağıma gəl.
– Oldu, rəis.

İki dəqiqə keçməmiş, baş leytenant otağına daxil oldu.

– Al. Maşını işə sal. Gəlirəm. – açarı Hüseynova uzatdı.
– Rəis. Siz yaxşısız? – Hüseynov narahat oldu.
– Yaxşıyam, yaxşıyam. Maşını işə sal, gəlirəm.
– Oldu, rəis. – Hüseynov otağı tərk etdi.

Otağında həmişə, dərman tapılırdı. İndi yox idi. Yolda alardı, eybi yox. Ayağa qalxıb, kabinetini tərk etdi. Hüseynov maşını işə salmış, Mayoru gözləyirdi.

– Gedək, Hüseynov. – arxa qapını açıb əyləşdi.

Hüseynov da əyləşib, maşını asfalta çıxardı. Asta sürətlə yola qoyuldu.

– Rəis. Aynur Həsənovanın işi nə yerdədir?
– Hələ ki, heç nə.
– Deyilənə görə, narkotik istifadəçisi imiş.
– Hə. – mayor könülsüz dedi.

Hüseynov, mayoru yormaq istəməyib, söhbəti yarıda kəsdi. Hüseynov, sürəti artırıb, mayorun yaşadığı binaya

Döndü. Üçüncü blokun qarşısında saxlayıb, maşını söndürdü.

– Rövşən. Maşını sür get. Sabah gəlib məni apararsan.
– Oldu, rəis. Sağ olun. – Hüseynov dedi.
– Sağ ol. – mayor deyib, maşından endi.

Hüseynov maşını işə salıb, binadan uzaqlaşdı. Mayor Əzizov öz mənzilinə qalxdı. Qapını açıb, evə keçdi. Paltarını dəyişib, yüngül ev paltarını geyindi. Mətbəxə keçib, özünə qəhvə dəmlədi. İsti qəhvəni götürüb, iş masasına keçdi. Qırmızı Gündəlik... dayan! Zibilə qalsın! Gündəlik bölmədə qalıb.  Telefonu çıxarıb, Hüseynovu yığdı:

– Hüseynov. Otağımda, masanın siyirməsində qırmızı gündəlik var. Onu təcili bizə gətir.
– Oldu, rəis. – baş leytenant telefonu qapadı.

O, bu qədərmi yaddaşını itirmişdi?! İsti qəhvəsindən bir qurtum aldı. Divardan asılan, ailə tablosuna nəzər saldı. Bu fotolar, oğlunun ad günündən idi. Bu il ikinci sinfə keçirdi, oğlu. Keçən ilin fotosu idi. Şəkildə, oğlu, özü, yoldaşı və anası var idi. Yoldaşı demişkən, gərək onunla danışaydı. Bu işləri yoluna qoysa, hər şey yaxşı olacaqdı. Başını oturacağa söykəyib, gözlərini tavana zillədi.
Qapının zəngi çalınırdı.. yatıb qalmışdı, deyəsən. Ayağa qalxıb qapıya getdi:

- Rəis, buyurun. – Hüseynov əlində tutduğu gündəliyi rəisə uzatdı.
- Çox sağ ol, Hüseynov. Yolundan olmadın?
- Xeyr.
- Gəl içəri. Bir çay içək. – Əzizov, baş leytenantı içəri dəvət etdi.
- Yox. Evdəkilər gözləyir. Gecdir.
- Yaxşı. Sabah tezdən burda ol.
- Oldu, rəis. – Hüseynov sağollaşıb, blokdan endi.

Mayor Eldar Əzizov, mənzilin qapısını kilidləyib, iş masasına keçdi. Nə var idisə, bu gündəlikdə. Var idi.. ürəyindən gələn hiss, bu gündəliyin elə-belə gündəlik olduğunu demirdi... Soyumuz qəhvəsini içib, yenisini dəmləmək üçün, mətbəxə yollandı. İsti qəhvəni götürüb gəldi. Budur. Rahatlıqla oxuya bilərdi. Dəftərin ilk səhifələrində elə də lazımi məlumat yox idi. Əsas səhifəyə keçib, oxumağa başladı.

# II

# Qırmızı Gündəlik

“20 may, 2021”

Bu yazıları niyə yazıram, heç özümdə bilmirəm. Bəlkə, heç kəs oxumayacaq?! Nə isə... Mən öz həyatımı yazıram. Hər şeyin yaxşı getdiyini zənn etsəm də, əslində hər şey pis idi. Yəni, sən saydığını say, gör, fələk nə sayır. Həyatımı büsbütün dəyişən, məni heç nə edən O, insana lənət olsun. Axı mən, saf, tərtəmiz idim. Mənim bu halım çöldən yaxşı görünsə də, içəridən daha əzablı, daha pis idi. Daş düşərdi, kaş O, günü yuxuda olardım. Lənətə gəlsin. onun həyatını alt-üst etmiş, “14

aprelə" o, günü uşaqlar yığılmaq istəyirdi. Qrupdan Kamilə, dəftər tutmuş, yığılan uşaqların adını qeyd etmişdi. Mənə yaxınlaşanda, bir az tərəddüd edib, razılaşdım. Dərs bitdikdən sonra, Nurlan məni evə ötürdü. Son vaxtlar, ondan da soyumuşdum. Hər şeyə irad bildirməsi, hər işə qarışması, məni əsəb edirdi. Birtəhər yola gedirdik. Nurlan dan icazə alıb, görüşə gedəcəkdim. Bir qədər tərəddüd edib, razılaşdı. Nurlan məndən ayrılıb evlərinə, məndə öz evimə getdim. Yüngül yemək yeyib, axşamüstü olacaq görüşə hazırlaşdım. Elə də çox uşaq yığılmayacaqdı. 18 qız, 6 oğlan. Saat beşdə evdən çıxıb, yığışacağımız restorana getdim. Bura restoran demək olmazdı.

Ayrı-ayrı otaqlardan ibarət, restorana bənzər bir yer idi. Amma restoran olmamasına əmin idim. Nə isə... Uşaqlar məni görüb, sevindilər. Qrupun ən şən qızı mən idim.

Mayor, yazıları oxuya-oxuya Aynurun nə tipdə olduğunu anlamışdı. Dəftərdə yazı az idi. Ümumiyyətlə, dəftər yeni tutulmuşdu. Mayın 27-nə qədər yazılmışdı. Hə. Fikrini  yazıya yönəltdi.
Süfrəyə bol-bol yeməklər gəlir, tez də bitirdi. Oğlanlar viski, biz isə, ağ şərab içirdik. Üç bakal içmişdim və içki öz təsirini göstərməyə başlamışdı. Qızlar maraqlı söhbət edir, oğlanlar sağlıq deyirdi. İki saat idi ki, bir yerdə idik. Birdən-birə halımın heç də yaxşı olmadığını hiss etdim. Qızlardan ayrılıb çölə, sərin havaya çıxdım.

Çöldə bir oğlan siqaret çəkirdi. Üzündən yaxşı bir oğlana oxşasa da, bu oğlan, mənim həyatımı alt-üst edən idi. Sərin havada çölü seyr edirdim. O, isə siqaret çəkirdi. Halımın yaxşı olmadığını bilirdim. O, mənə yaxınlaşıb:

– Siz yaxşısız?
– Hə, yaxşıyam. – tələsik cavab verdim.
– Heç elə görünmür. – cavab verdi.
– Bir az başım ağrıyır. – dedim.
– Hə. Özünüzü soyuğa verməyin. – mənə yaxınlaşdı.
– Hava elə də soyuq deyil. – cavab verdim.
– Adım Tahirdir.

Bu ad, mənim yaddaşımda əbədi qalacaqdı.

– Aynur. – deyə, cavab verdim.

O, maraqlı söhbət edir, məni Valeh edirdi. İndiki hadisələrdən, tarixdən, danışır, mən isə, ona qulaq asırdım. Söhbət bitdikdən sonra, içəri keçmək istədim. Tahir mənə nömrəsini verib:

– Boş vaxt olanda, danışa bilərik? – dedi.
– Olar. – nömrəni alıb, içəri, uşaqların yanına qayıtdım.

Uşaqlarla çay içib, ayağa qalxdıq. Hamı öz evinə yol aldı. Bu gün, yorğun idim. Ən əsası, yeni dost əldə etdiyimi fikirləşirdim.

Rəis, yazının burada bitdiyini gördü. Növbəti səhifəyə çevirdi. Qəfil gözləri, divardan asılan saata sataşdı. İki idi. Bu gecə gündəliyi bitirməli idi. Növbəti səhifədə yazılar, 21mayda yazılmışdı. Aynur isə, 25-i ölmüşdü. Fikrini yazılara yönəldib, oxuya davam etdi.

21 may, 2021

Mənim ölümüm daha yaxşı idi. İki ay idi ki, pis vərdişə qurşanmışdım. Bilmirəm, bu gündəliyi niyə yazıram. Bir onu bilirəm ki, yazmaqda gecikmişəm. Onunla artıq, mütəmadi olaraq görüşürdük. Bəzən, evə də gəlirdi. O, mənə yaxınlaşmırdı. Görüşlərdən birində, məndən xoşlandığını dedi. Mən buna müsbət reaksiya verdim. Düzünü desəm, mənim də ondan xoşum gəlirdi. Bir gün bizə gələndə, siqaretə oxşar bükülü gətirdi. İki ədəd. Nə olduğunu soruşdum. Dedi ki, əladır. Göylərə aparır adamı. Mən də ona qoşulub, çəkdim. Beynim dumanlanır, göylərdə uçurdum. Və bundan sonra bunun aludəçisi oldum. O, olmadıqda, pis olur, özümü öldürməyə çalışırdım. Tahir isə, gələndə gətirirdi. Daha sonra, ən pisinə, iynəyə keçdim. Özüm qısa yazıram, əslində həyatım, daha böyük, daha acılı imiş. Hə, nəql edirəm sizə. Bir müddət keçdikdən sonra, Tahir mənə bir təklif etdi. Mən müəyyən ərazilərə narkotik aparacaq, deyilən yerə qoyub, qayıdacaqdım. İlk öncə rədd etdim. Tahir, mənim bu işlərimi ailəmə deməklə

hədələdi. Məcbur qalıb, razılaşdım. Nə edim?! Məcbur idim! Bir müddət də bu işlə məşğul oldum. Sonumun olmadığını bilirdim. Ölmək! Ölmək idi, çarəm. Və bu intihar planını cızdım.

Rəis, ayağa qalxıb, mətbəxə getdi. Qatilin izinə asanlıqla düşə biləcəyini anlamışdı. Qəhvə dəmləyib, masaya qayıtdı. Yerini rahatlayıb, gündəliyə nəzər yetirdi. Burada yazılar bitmişdi. Növbəti səhifəyə çevirdi. Başlığa, böyük hərflərlə, Planlı ölüm! Yazılmışdı. Rəis qəhvədən içib, oxumağa davam etdi.

# Planlı ölüm?!

Son anlarımı yazıram. Məktub yazıb, stolun üstünə qoymuşam. Bura bir-iki cümlə yazıb, gözlərimi əbədiyyən yumuram. Bəlkə də, bu gündəliyi polislər ələ keçirəcək. Əgər bu gündəliyi tapsalar, bilsinlər ki, mənim ölümümdə günahkar, Odur. O və onun Şefi. Mən özümü də günahkar sayıram!

Tahir isə, sevdiyim tək günahkar!

Əlvida.

***

Səhərin erkən saatlarında, həyətdə dayanan “Nissan” Rəis, Eldar Əzizovu gözləyirdi. Sükan arxasında əyləşən baş leytenant Rövşən Hüseynov, Rəisin gəlməsini gözləyirdi. Rəis blokun kiçik qapısından çıxıb, maşına əyləşdi.

– Sabahın xeyir, Hüseynov.
– Sabahınız xeyir, Rəis.
– Gedək.

Hüseynovu maşını sürüb, asfalta çıxardı. Orta sürətlə bölməyə gedirdilər.

– Axşam gündəlikdən nə isə öyrənə bildinizmi? – Hüseynov sual verdi.
– Hə. Qatilin izinə düşə bilərik. Qatil deyəndə ki, Günahkar! Aynur Həsənovanın Ölümündə ki, günahkar. – rəis cavab verdi.
– Deməli, qızın ölümündə günahkar var imiş!
– Sən nə bilirdin bəs?
– Mən? Sadə intihar sayırdım.
– Səncə, dərdi olmayan insan intihar edər?
– Məncə, nə deyim? Bilmirəm. – Hüseynov tutuldu.
– Bilmirsən. Onda yola davam et.

Oldu. – Hüseynov səsini kəsdi.

Qara rəngli ”Nissan” polis bölməsinin həyətinə daxil oldu. Maşından enən Rəis, iti addımlarla bölməyə daxil oldu. Leytenant İsayev Rəisə yaxın gəlib, salamlaşdı.

– Hər vaxtınız xeyir, rəis.
– Aqibətin xeyir, İsayev. – rəis salamlaşıb, otağına keçdi. İsayev də ardınca.
– Rəis. Aynur Həsənovanın qonşularını dindirək. Bəlkə bir məlumat ala bildik.
– Olar. Bir azdan gedərik.
– Oldu, rəis.

İsayev otağı tərk etdi. Rəis telefonunu götürüb, müstəntiqə zəng vurdu.

– Buyur, rəis.
– Ağayev. Qızın ata-anasını dindirmisiz?
– Bəli, rəis. Heç bir yenilik ala bilməmişik.
– Yaxşı. İşinizdə olun.
– Oldu, rəis.

Qutunu açıb, siqaret yandırdı. Günü yola vermək olmazdı. Ayağa qalxıb, kabinetini tərk etdi.

İsayevi axtarıb, otağında tapdı.

– İsayev. Gəl, gedirik. – geri qayıdıb, çölə çıxdı.

İsayev də ardınca cölə çıxdı. Maşına əyləşib, iki gün öncə intihar baş vermiş binaya yollandılar.

– Sizcə hadisənin axırı necə olacaq? İntihar yoxsa cinayət? – Leytenant dedi

– Hələ ki, heç nə deyə bilmərəm. – rəis cavab verdi.

Binaya çatmışdılar. Yuxarı qalxıb, mərhum Aynur Həsənovanın qapı qonşusunun mənzilinin zəngini basdılar. Qapını orta yaşlı bir qadın açdı.

– Buyurun, kim lazım idi? – qadın, sual dolu baxışlarla rəisi və leytenantı süzürdü.
– Salam. Polisdənik. İçəridə danışa bilərik? – rəis cavab verdi.
– Keçin. – qadın, qapıdan çəkildi.
– Sizə bir-iki sual verəcəyik. Qapı qonşunuz, mərhum Aynur Həsənova haqqında. – rəis, otağa keçərək dedi. Qadın üz-gözünü turşudub:
– O, hallı qız haqqında?
– Deyək ki, hə.. – rəis cavab verdi.
– Oturun. – qadın yer göstərdi.
– Çox sağ olun. – rəis dedi və müstəntiqlə keçib əyləşdi.
– Mərhum, Aynur Həsənova, necə biri idi? – leytenant sual verdi. Müstəntiq isə, izləyirdi.
– Əvvəl sakit idi. Başı aşağı, ağıllı. Sonralar isə, bildiyiniz kimi.
– Burada necə yaşayırdı. Özünü necə aparırdı?
– Əvvəl yanına qız gəlib gedirdi. Qrup yoldaşı imiş, yəqin ki. Özü də sakit idi. Səsi çıxmazdı. Elə bilərdin ki, orada adam qalmır.
– O, qız necə biri idi? – rəis söhbətə müdaxilə etdi.

– Belə, arıq, orta boylu, gözəl bir qız idi. Yerişi də qəribə idi. Sanki tullanırdı.

Rəis bildi ki, bu qız, Fatimə imiş. Həm, onun yerişini də yadda saxlamışdı.

– Hə. Bildim. İsayev davam et. – rəis dedi.
– Aynurun yaxınları gəlib gedirdi. Anası, atası. – müstəntiq dilləndi.
– Yox. Görməmişəm. Gəliblərsə də, görməmişəm.
– Yaxşı. Son vaxtlar necə idi? Mərhum, Aynur Həsənova.
– Son vaxtlar. Qəribə idi. Qışqırıq səsləri gəlirdi. Öz-özünə qışqırırdı. Yanına da bir oğlan gəlirdi.
– Oğlan? – Leytenant təəccüblənsə də, Rəis dinmədi.
– Necə bir oğlan idi? – leytenant soruşdu.
– Arıq, uzun boylu, biri idi. Az-az gəlirdi.
– Adını eşitmişdiz?
– Yox. Mən özüm işləyirəm. Super marketdə xadimə. Evdə çox olmuram. Olanda da, qızın bu səsini, oğlanın gəlməsini az-az görürdüm.
– Hadisə olan gün, evdə idiniz?
– Bəli. Evdə idim. – qadın tez cavab verdi.
– Mərhum özünü atanda, sizdə aşağı düşdünüz?
– Hamı həyətə qaçdı. Məndə düşdüm.
– Başa məlumatınız yoxdur ki, mərhum haqda.
– Yox. Olsa deyərdim. – qadın dedi.

– Oldu. Biz qalxaq. – Rəis, leytenanta işarə edib ayağa qalxdı. Leytenant, dəftərini götürüb, qapıya doğru addımladı.
– Sağ olun. – rəis dedi
– Sizdə. – qadın cavab verib, qapını bağladı. Bloku düşə-düşə Leytenant sual verirdi;
– Rəis, sizcə biz doğru yoldayıq?
– Hə. Bircə işimiz, Tahiri tapmaqdır!
– Tahir?! O, kimdir?! – Leytenant təəccübləndi.
– Günahkar! – rəis cavab verdi.
– Bəs mənə niyə demədiniz?
– Hər şeyin vaxtı var. Birdə ki, mən, araşdırma zamanı tapdığım məlumatı deməyi sevmirəm.
– Bəli. İndi nə edək, rəis?
– Heç nə. Bölməyə gedək. – rəis blokdan çıxıb maşına əyləşdi. Leytenant da əyləşib, qapını örtdü.

Rəis maşını işə salıb, binadan uzaqlaşdı.

***

– Mərhum Aynur Həsənovanın valideynləri sizsiniz?
– Bəli. Qadın və kişi dilləndi.
– Xatirə xanım. Qızınız ilə axırıncı dəfə, nə vaxt danışmısınız? – rəis, sorğu otağında ana və atanı danışdırırdı.
– Beş gün olar. – qadın kədərlə cavab verdi.
– Bəs siz, Əhməd müəllim. – ataya müraciət etdi.

– Xatirə danışanda, məndə salam-sağ ol etdim.
– Hm... Bəs yanına gəlmirdiniz?
– Vaxt olmurdu, oğul. Xatirə müəllimə adam, məndə əkində, biçində. – kişi, kədərli gözlərini pəncərəyə dikib, cavab verdi.
– Sizlə danışanda, özünü necə aparırdı?
– Sadə. Gülürdü, həmişə. Kefi, əhvalı pis olmazdı. – anası cavab verdi.
– Pul-para göndərirdiniz?
– Əlbəttə. – atası müdaxilə etdi.
– Yaxşı. Sorğu bitdi gedə bilərsiniz. – rəis də ayağa qalxdı.

Ata-ana ayağa qalxıb, sorğu otağını tərk etdilər. Ata yaman kədərli idi. Gözləri bir yerə dikilmişdi. Rəis otağına getdi. Telefonu çıxarıb, müavinini yığdı.

– Aslanov. Araşdır, gör. Mərhum, Aynur Həsənovanın əhatəsində Tahir adlı oğlan kimdir. Harada qalır? Sabah, Tahir tapılsın. O, bizə lazımdır.
– Oldu. Rəis.

Eldar Əzizov, bu vəzifədə dörd il idi ki, işləyirdi. Bu çətin peşəni, atasının xahişi ilə seçmişdi. Atası onu polis görmək istəyirdi. Allah rəhmət etsin sənə, kişi! Dedi. Əzizov, nədənsə Şəhərdə çalışmaq istəmirdi. Bu hadisənin səbəblərini açsın, ərizə yazıb, rayona gedəcəkdi. Başı dinc, qulağı sakit. Orada xidmət etmək istəyirdi. Şərəfli polis idi. Burada qalmaq, bir-iki

özündən razıya tabe olmaq istəmirdi. Gecəyə az qalırdı. Paltosunu geyinib, kabineti tərk etdi. Evə gedirdi...

# III

– Salam. Gəlmirsən, rayona?
– Salam. Nə var rayonda?
– Bizi aparmağa deyirəm. Uşaqlar da darıxır.
– Bu gün vaxt tapa bilsəm, gələrəm.
– Özün necəsən? – yoldaşı halını soruşdu.
– Necə görmüşdün, elə. – Əzizov kobud cavab verdi.
– Niyə belə danışırsan? – yoldaşı incidi.
– Nə isə. Hazır olun, gəlib gətirdim sizi, bəlkə. – deyib, telefonu qapadı.

Vanna otağına keçib, üzünü qırxdı. Dişlərini fırçalayıb, üzünü quruladı. Mətbəxə keçib, yumurta, sosiska, qaynatdı. Çay qoyub əyləşdi. Qutudakı son siqaretini çıxarıb, yandırdı. Yaxşı ki, yoldaşı zəng etmişdi. Yatıb qalacaqdı, yoxsa. Qapının zəngi çalınırdı. Siqareti külqabına basıb söndürdü. Qapıya gedib açdı.

– Sabahın xeyir, qonşu. Həlimə, şorqoğalı bişirmişdi. İsti-isti sənə də gətirdim. – qapı qonşusu Nadir, nimçədəki qoğalları Əzizova uzatdı.
– Çox sağ ol, Nadir. Ehtiyac yox idi. – qoğalları aldım.
– Əziyyəti, filanı yoxdur. Sağ ol, qonşu. – görüşüb, evinə keçdi.
– Sağ ol. – deyib, qapını bağladım. Evə keçəndə, çayın qaynadığını, yumurta və sosiskanın suyunun

quruduğunu gördüm. Tez qazları söndürüb, çayı süzdüm. Az da olsa. Yumurta və sosiskanı soyub, boşqaba qoydum. Masaya keçib, yüngül naharımı

etdim. Telefonuna gələn ani zəng, məni çaşdırdı. Zəngi açıb:

– Alo. – dedim
– Rəis. Dediyiniz oğlanı gətiriblər. Kameradadır. – baş leytenant Hüseynov dedi.
– Aslanov gətirib? – soruşdum.
– Bəli, rəis.
– Yaxşı, gəlirəm. – deyib, dəstəyi asdım.

Yeni kostyumumu geyinib, evdən çıxdım. Hər ehtimala qarşı, tapançanı da götürməyi unutmadım. Məhəllədə bir, ins-cins görünmürdü. Maşınıma əyləşib, həmişəki komfortu hiss etdim. İşə salıb, yol boyu şütüyən maşınlara qoşuldum.

***

– Danış deyirəm!
– Mən heç nə bilmirəm! – gənc əli ilə üzünün qanını silirdi.
– Yalan deyirsən! De görüm, qıza nə etmisən?!
– Dedim ki, heç nə bilmirəm. – o, inkar edirdi.
– Qız ölümündə səni günahlandırıb. O, biçarə qıza nə etmisən?!
– Yalandır. Mənim xəbərim yoxdur.

Cinayət axtarış şöbəsinin rəisi Eldar Əzizov, iki saata yaxın idi ki, Tahir adlı bu gənci sorğuya çəkmişdi. Tahir isə inad göstərir, heç nə bilmədiyini deyirdi. Leytenant İsayev, Tahiri vurmuşdusa da, xeyri yox idi.

– Tahir mənimlə oynama! O, qızın başına nə pislik gətirmisən?! – Rəis, əsəbini boğa bilmirdi.
– Bilmirəm, bilmirəm!
– Yaxşı. Nə deyirəm! Bir neçə saat vaxtın var! Cavab verməsən özündən küs! – rəis çölə çıxıb, qapını zərblə vurdu.

Telefonuna zəng gəlirdi. Açdı:

– Hə.
– Gəlmirsən? – yoldaşının səsi eşidildi.
– Bu dəqiqə nə olub? – hirsli cavab verdi.
– Evimizə gəlməyək?
– Yarım saata burdan çıxacağam. – deyib, telefonu qapadı.

Kabinetlərin birindən musiqi səsi gəlirdi. Getdikcə mahnının səsi yüksəldi. Yaxınlıqdakı kabinetə daxil olub, serjant Bəkirovun telefonda musiqiyə qulaq asdığını gördü.

– Bəkirov! Bura restorandır, bardır?!
– Üzr istəyirəm, rəis. – Bəkirov, ayağa qalxıb musiqinin səsini kəsdi.
– Yığışdırın özünüzü. – çölə addımlayıb, qapını tappıltı ilə çırpdı.

Dəhlizlə addımlayıb, çölə çıxdı. Bölmənin həyəti sakitlik idi. Çöldə saxladığı "Nissana" əyləşib, A. Rayonuna yola düşdü. Qarşıda yerləşən benzin doldurma məntəqəsinə çatanda, sürətini azaldıb məntəqəyə daxil oldu. Maşını söndürüb, benzinin

dolmasını gözlədi. Elə bu vaxt, gözü məntəqədə olan televizora sataşdı. Müxbir qadın, durmadan danışırdı.

– " 19 yaşlı tələbənin ölüm səbəbi hələ də məlum deyil! Hüquq mühafizə orqanları işlə bağlı araşdırmalar aparılır. Ümid edirik ki, mərhumun ölüm səbəbi, bu yaxınlarda bilinər." – müxbir sözlərini deyib, başqa xəbərə keçdi.

Bak dolmuşdu. Maşını işə salıb, yola düşdü. Radionu işə saldı. Maraqsız söhbət gedirdi. Dəyişdi. İndi, həzin musiqi səslənirdi.

***

– Ay bala, keç bir çay içdə.
– Yox, Zülfiyyə xala. Gedirəm. – Əzizov dedi.
– Bala, yol gəlmişsən. Bir dincəl. – qadın israr edirdi.
– İşdən icazə almışam. Təcili qayıtmalıyam.
– Yaxşı, bala. Nə deyirəm. Gözlə bir çolpa tutum. – qadın hinə doğru yüyürdü.
– Ay Zülfiyyə xala. Maşını batıracaq, lazım deyil. – Rəisin səbri tükəndi.
– Həəə. Yaxşı. – qadın dala qayıtdı.

- Yaxşı. Biz getdik. – rəis qapıdan çıxıb, maşına doğru getdi.
- Xoş getdiniz. Sağ-salamat. – qadın cavab verdi.

Rəis maşını sürüb, kələ-kötür yollardan çıxardı. Asfalta çıxıb, Bakıya yol qoydu.

- Dincələ bildiniz? – rəis soruşdu.
- Belə də. Kənd palçıq idi, bir az.
- Hə. Sizi ana gilə aparım. Mən bu gün gələ bilmədim, bəlkə.
- Hara gedəcəksən? – yoldaşı şübhələndi.
- Polis işçisi hara gedə bilər? – rəis səsini qaldırdı.
- Nə bilim? Hara gəldi. – yoldaşı tələsik dedi.
- Sevda, sən Allah Bəsdir?! Nədir, yenə dava axtarırsan?
- Sən bəsdir, Eldar. Hara gedirsən, haradan gəlirsən, xəbərimiz yox. Hər şeyə bəhanə gətirirsən!
- Bəsdir! – əlini sükana çırpdı. – mən hara gedirəm axı! Bəlkə elə bilirsən ki, qadın yanına gedirəm?! Sən deyərsən, inanıram, deyərsən!
- Qışqırma, uşaq qorxur.

Rəis dinmədi. Fikrini yola yönəldib, siqaret yandırdı. Bakıya çatırdılar.

- Söndür onu, uşağa ziyandır. – yoldaşı siqaretə işarə etdi.

Rəis siqareti pəncərədən tulladı. Bakıya çatmışdılar.

***

Uşaqları anası gilə aparmış, indi isə m, şöbəyə qayıdırdı. İsayev bayaqdan zəng vururdu. Bayaq siqaret çəkə bilmədi. Qutunu açıb yandırdı. Qarşıda reyd var idi. Posta 30-40 metr qalmış, onun maşınına dayanmaq əmri verildi. Qırmızı çubuğu görüb, maşını saxladı.

– Serjant, Yusifli. Vəsiqənizi verin. – cavan oğlan dedi.

Rəis, polis vəsiqəsini çıxarıb göstərdi. Serjant vəsiqəyə baxıb:

– Gedə bilərsiniz, cənab mayor. – serjant gülərüzlə dedi.
– De görüm, bu post nə üçün qurulub? – rəis dedi.
– Oğurluq var. Bütün avtomobillər saxlanılır.
– Hə. Uğur, onda. – rəis maşını sürüb, postdan uzaqlaşdı.

Bölməyə çatanda, hava buludlu idi. İçəri keçib, İclas otağına getdi.

– Xoş gördük, mayor. – Polkovnik rəisi salamladı.
– Salam. – keçib əyləşdi.
– Nə məlumatlar var? İş nə yerdədir?
– O, danışmır! Ya özünü dəli bilir, ya bizi. – rəis hirsləndi.
– Yaxşı. Nə məsləhət görürsən?
– Araşdırmalar aparılır. Günahkar tapılacaq. – rəis cavab verdi.
– Yaxşı. Gedə bilərsən.

Əzizov, sorğu otağına addımladı. İçəri keçib, İsayevin otaqda olduğunu gördü.

– Rəis. Demir, danışmır. – İsayev ayağa qalxdı.
– Danışacaq, İsayev, danışacaq! – keçib, Tahirlə üz-üzə oturdu.
– Tahir. Gəl bizi dağa-daşa salma! De görək, qızı sən intihar etməyə sövq etmisən?! – rəis asta səslə dedi.
– Mən heç nə bilmirəm! – Tahir qışqırdı.
– Yalan deyirsən. – şillənin səsi koridorda eşidildi.

Üzünü tutan Tahir, söyüş söyürdü.

– Ə, kəs səsini! – Əzizov yumruqla onun üzünə zərbə endirdi.

Tahirin qışqırığı bölməyə yayılmışdı. Sanki, onu kəsirdilər.

– Danışacaqsan! Hamısını, bir-bir danışacaqsan! – rəis kabineti tərk edəndə, geri dönüb:
– Kameraya salın! – deyib, qapını çırpdı.

Otağına getmək istəməyib, Müstəntiqi yığdı.

– Alo, Ağayev. Mərhum, Aynur Həsənovanın mənzilinə gəl. Məndə gəlirəm. Evə birdə baxaq.
– Oldu, rəis.

***

Yenidən bu evə gəlmək, Əzizovun şübhələrinə əsaslanırdı. Müstəntiq Ağayev, evi axtarırdı. Əlinə bir

şey keçəcəyinə ümid edirdi. Rəis, mətbəxə keçdi. Müstəntiq də rəisin dalınca mətbəxə addımladı. Rəis boşqab, stəkan yığılmış rəfi açdı.

– Ağayev. Al bunu. – rəis, əlində tutduğu stəkanı müstəntiqə uzatdı.
– Ekspertiza? – müstəntiq təəccübləndi.
– Bəli, Ekspertiza. Bu gün aparacaqsan.
– Oldu. – müstəntiq, stəkanı alıb, portfelə qoydu.
– Rəis, gedək? – müstəntiq sual verdi.
– Gedək də. – rəis qapıya addımladı. İkisi də mənzildən çıxdı. Rəis qapını bağlayıb, müstəntiqlə aşağı düşdü.
– Rəis. İşin sonu nə olacaq? – müstəntiq maşına əyləşib dedi.
– Görək də. – rəis maşını işə salıb, şəhərə tərəf sürdü.
– Ağayev, Tahirin ailəsi nə əcəb onu axtarmır. Ya bölməyə gəlmir.
– Rəis, bəlkə Tahir gilə gedək? – müstəntiq soruşdu.
– Olar. Evlərini tanıyırsan?
– Protokolda yazılmışdı. – müstəntiq dərhal dedi.
– Onda gedək.

***

– Mənim o, adda övladım yoxdur!
– Başa düşürük, biz sizdən kömək istəyirik. – müstəntiq xahiş etdi.
– Nə kömək? – qoca kişi gözlərini bərəldib sual verdi.

– Oğlunuz haqqında bir-iki sual verib, gedəcəyik.
– Keçin həyətə. – qoca qapıdan çəkildi.

Rəis və müstəntiq, keçib həyətdəki stolda əyləşdilər. Kişi də gəlib oturdu.

– Eşidirəm. – kişi qaşqabaqlı halda dedi.
– Adınız nədir?
– Bəhram.
– Bəhram dayı, oğlunuz haqqında nə bilirsiniz dəyərsiz.
– O, mənim oğlum deyil!
– Hər nə isə.. – müstəntiq dedi.
– Tahir burada qalırdı? – müstəntiq sual verdi.
– Yox. Kirayə qalırdı. – Bəhram kişi dedi.
– Nə vaxtdan olar?
– Bir il olar. – Bəhram cavab verdi.
– Niyə sizinlə qalmırdı. Probleminiz var idi?
– Yox. İçki içirdi, çəkirdi. Məndə qovladım. Dedim, çıx get, birdə buralara gəlmə.
– Çoxdan idi ki, çəkirdi?
– İki il olar, olmaz. – Bəhram, köksünü ötürdü.
– Bilmirdiniz ki, kimlərlə gəzir? – rəis müdaxilə etdi.
– Qonşu uşaqla. Adı, Vüsaldır.
– Yaxşı. Bəs, Tahir işləyirdi?
– Yox. Avaralıq edirdi. Bir-iki manat pensiya alırdım. Yarısını ona verirdim. Hələ, qumar oynamağını demirəm! – Bəhram kişi əsəbləşdi.
– Sakit olun. Tahir şübhəli şəxs qismində saxlanılıb.
– Cəhənnəmdə ki... – onun halı yaxşı deyildi.

– Yaxşı, Bəhram dayı. Ola bilsin ki, sizinlə yenə görüşdük. Sağ olun – ikisi də ayağa qalxıb, həyət qapısından çıxdılar.
– Xoş getdiniz. – Bəhram kişi dedi.

Rəis fikrə gedib, müstəntiqə dedi:

– Gəl, O, Vüsaldır, nədir, gedək onu da danışdıraq.
– Evlərini tanıyırıq ki? – müstəntiq duruxdu.
– Vacib deyil, onda. Gedək.. – rəis maşına əyləşdi. Müstəntiq də əyləşib, qapını örtdü. “Nissan” işə düşüb, dar məhəllədən uzaqlaşdı...

# IV

– Elə eləmə ki, günahı sənin üstünə atıb, səni də içəri saldırım. – Polkovnik, rəisin Tahirlə olan sorğusuna baxırdı.
– Rəis... Məni danışdıra bilməzsən. Özünü yorma. – Tahir, iyrəncliklə gülürdü.
– Al köpək uşağı. – Tahir, yumruğun təsiri ilə yerə sərildi.
– Sənin..... – Tahir, sözlərinin ardını deyə bilmədi. Ard-arda deyən təpik zərbələri, onu susmağa məcbur etmişdi.
– Danış! Danış deyirəm!
– Vurma, vurma deyəcəyəm! – Tahir zarıldadı.
– De! De görüm, nə etmisən, qıza!

Tahiri ayağa qaldırıb, masaya otuzdurdu.

– Eşidirəm! – rəis qışqırdı.
– Onu.... – öskürək tutduğu üçün, əlləri ilə ağzını tutdu.
– Danış. – rəis məcbur etdi.

Otaqda əyləşən, leytenant İsayev, baş leytenant Hüseynov və Polkovnik Rzayev rəisi izləyirdi. İşin axırı necə bitəcəkdi, onu gözləyirdilər.

– Mən onunla restoranda tanış olmuşdum. İlk günlər, dost kimi görüşdük. Sonralar isə, aramızda isti münasibətlər yarandı. Mən, onun evinə az-az gedirdim. Onu narkotikə meyl elətdirdim. Gedəndə, bir bükülü də ona aparırdım. Artıq, öyrənmişdi.
– Dinləyirəm. – rəis, danışmağını istədi.
– Hə. Sonralar ona iynə təklif etdim. Ölənə qədər iynə vururdu.
– Necə oldu, bu hadisələr?! – Əzizov qışqırdı.
– Mənim etdiyim pis əməlləri, narkotik satışını, hamısını bilirdi, O!
– Kim?! – Əzizov təəccübləndi.
– Aynur! – Tahir dedi.
– Onu sən öldürmüsən! – Əzizov ayağa qalxdı.
– Hə! Mən öldürmüşəm. Nədir?! – Tahir qışqırdı.
– Necə etmisən?! – Əzizov, Tahirlə üz-üzə dayandı.
– Planlı ölümlə!
– Necə?
– Mən Aynurun yanına getdim, həmin gün. Ona dedim ki, mənə təcili belə bir məktub lazımdır. O, isə, nə

edəcəksən onu. Dedim ki, şəxsi bir işdir. Razılaşdı. Həmin gün, əmin idim ki, məni heç kim görməyəcək. Qonşu evdə də heç kəs yox idi. Buna çoxdan əmin idim. Aynur məktubu yazdıqdan sonra, çay hazırlamağı məsləhət gördüm. Stəkanları gətirəndə, onun stəkanına yuxu dərmanı tökdüm.

– Onun qanında dərman aşkarlanmayıb! – rəis dedi.
– Sizə elə gəlir. – Tahir üzünü turşutdu.
– Danış.
– Hə.. o, çayı içib, bir azdan hallandı. Bildim ki, yuxusu gəlir. Pəncərəyə tərəf aparıb, onu tulladım. Evdən çıxıb, damla yuxarı qalxdım. O, biri blokdan çıxıb, asta addımlarla məhəllədən uzaqlaşdım.
– Tüpürüm sənin kişiliyinə. – Əzizov, kəskin söyüş

Söydü.  Bu alçaq cinayəti törədən, Tahir imiş!

– İsayev. Yuxarı zəng vur. Gəlib, Tahiri aparsınlar. – rəis dedi.

Artıq cinayətkar tapılmışdı. Eldar Əzizov, bu işi bağladığına sevinirdi. Polkovniklə danışıb, şöbəni tərk etdi...

Son

39

Son